AZƏRBAYCAN RESPUBLİKASI VERGİLƏR NAZİRLİYİ

# Vergi ödəyicisi kimi fəaliyyət göstərirsiniz?

# Vəzifələrinizi tam yerinə yetirmək istəyirsiniz?

## O halda bilməlisiniz ki, Vergi Məcəlləsinə edilmiş dəyişikliyə əsasən...

Aşağıdakı şəxslər istisna olmaqla, digər şəxslər tərəfindən **sahibkarlıq fəaliyyətini həyata keçirən hüquqi və fiziki şəxslərə** malların (işlərin, xidmətlərin) təqdim edilməsi ilə bağlı Vergi Məcəlləsində nəzərdə tutulmuş qaydada elektron qaimə-faktura verməlisiniz:

- bank əməliyyatlarını həyata keçirən şəxslər tərəfindən müştərilərin hesabları üzrə xidmətlərin göstərilməsi;
- dövlət hakimiyyəti, yerli özünüidarəetmə orqanları və büdcə təşkilatları tərəfindən işlərin və xidmətlərin təqdim edilməsi;
- notariuslar tərəfindən (notariat hərəkətlərinin aparılmasına görə və notariat hərəkətləri ilə əlaqədar) xidmətlərin göstərilməsi.

"Mühasibat uçotu haqqında" Azərbaycan Respublikasının Qanunu ilə mühasibat uçotunu məcburi qaydada elektron formada aparmalı olan şəxslərə aidsinizsə, siyahısı və forması **Azərbaycan Respublikası Vergilər Nazirliyi** tərəfindən müəyyən edilmiş **məlumatların müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqana (quruma) təqdim olunmasını təmin etməlisiniz**.

195

Az1073, Azərbaycan, Bakı, Landau küçəsi, 16
Tel: +994 12 403 89 70; Faks: +994 12 403 89 71
E-poçt: office@taxes.gov.az

www.taxes.gov.az

## Əlavə olaraq bilməlisiniz ki...

- Pərakəndə ticarət və (və ya) ictimai iaşə fəaliyyəti üzrə nağd pul hesablaşmalarını **Azərbaycan Respublikası Nazirlər Kabineti** tərəfindən müəyyən edilmiş meyarlara cavab verən və **Azərbaycan Respublikası Vergilər Nazirliyinin** elektron informasiya sisteminə real vaxt rejimində qoşulmuş **nəzarət-kassa aparatı vasitəsilə həyata keçirməli**;
- istismar zamanı nəzarət-kassa aparatının plombu pozulduqda və ya başqa nasazlıqlar yarandıqda vergi orqanlarına dərhal məlumat verməklə NKA-dan istifadəni müvəqqəti dayandırmalı və həmin müddətdə nağd pul hesablaşmalarının qeydiyyatını **Azərbaycan Respublikası Vergilər Nazirliyi** tərəfindən müəyyən edilmiş qaydada aparmalısınız.

## Əlavə olaraq...

- Məcburi nişanlama ilə nişanlanmalı olan malları **məcburi nişanlama ilə nişanlanmaqla** almalı, idxal etməli, satış məqsədilə saxlamalı və ya satmalı, habelə həmin malların dövriyyəsi ilə bağlı **Azərbaycan Respublikası Nazirlər Kabineti** tərəfindən müəyyən olunmuş qaydaya riayət etməlisiniz.

Qanunvericiliyin tələblərinə əməl etməyəcəyiniz halda, baş verə biləcək maliyyə itkiləriniz və vergi məbləğlərinin hesablanıb ödənilməsi ilə bağlı məlumatı www.taxes.gov.az internet saytından və müvafiq bukletlərdən əldə edə bilərsiniz.